# ŞAMAXI RAYON TORPAQ-LANDŞAFT ZONALARININ TƏHLİLİ VƏ XƏRİTƏSİNİN TƏRTİBİ

**Əlisoy N.H.**

*AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu*
*narminalisoyy@gmail.com*

Tədqiqat obyektimiz olan Şamaxı rayonu Baş Qafqaz silsiləsinin cənub-şərq ətəklərində yerləşir və inzibati cəhətcə şimaldan Quba, şimal- şərqdən Şabran, şərqdən Abşeron, cənub- şərqdən Sabirabad və Salyan, cənubdan Sabirabad, qərbdən Kürdəmir, Ağsu və İsmayıllı rayonları ilə həmsərhəddir. Sahəsi 1611 $km^2$, əhalisi 85,3 min nəfərdir. Rayon torpaqları 5 landşaft tipi daxilində qruplaşdırılmışdır: alp və subalp zonasının çəmən bozqırları; mezofil meşələrinin torpaqları; kserofil meşələrin və kollu bozqırların torpaqları; quru subtropik bozqırların və yarımsəhraların torpaqları; çaybasarların və düzən meşələrin torpaqları. Bütün bunları ümumiləşdirib Şamaxı rayonu üzrə GİS platformasında ərazinin landşaft zona xəritəsi tərtib olunmuşdur.

*Alp və subalp zonasının çəmən bozqırları.* Bu landşaft tipi əsasən yüksək dağlıq hissədə dəniz səviyyəsindən 2000-4500 m yüksəkliklərdə yayılmışdır. Bu cür torpaqlar əsasən kənd təsərrüfatında yaylaq və biçənəklər kimi istifadə edilir.

*Mezofil meşələrinin torpaqları.* Bu torpaqlar əsasən Böyük Qafqazın cənub və şimal şərq hissələrində, dağ sisteminin rütubətli hissəsində yayılmışdır. Rayon üzrə bu landşaft üzrə əsasən çimli karbonatlı tipik dağ meşə və yuyulmuş çimli karbonatlı dağ meşə torpaqları bu tipə aiddir.

*Kserofil meşələrin və kollu bozqırların torpaqları.* Bu torpaqlar dəniz səviyyəsindən 600-1200 m yüksəklik olan dağətəyi və alçaq və ortadağlıq hissədə yayılmışdır. Bu torpaqlar Azərbaycanın ən münbit torpaqları sırasına daxildir.

*Quru subtropik bozqırların və yarımsəhraların torpaqları.* Bu torpaqlar dəniz səviyyəsinə görə hündürlüyü -28 dən 200-400 m-ə qədər olan bölgələri üçün spesifikdir. Burada bitki örtüyü çox azdır.

*Çaybasarların və düzən meşələrin torpaqları* isə rayonun alçaq subasar terraslarında, qrunt və daşqın sularının aktiv təsir etdiyi ərazilərdə yayılmışdır.

ŞAMAXI RAYON LANDŞAFT ZONA XƏRİTƏSİ

